BUILDING TRUST

# MƏHSULUN MƏLUMAT VƏRƏQİ

# Sika® Sigunit® L-25

Yaş püskürtmə beton üçün bərkimə sürətləndirici əlavə

## TƏSVİR

Sika® Sigunit® L-25, mayə tərkibdə yaş püskürtmə beton tətbiqlərində istifadə olunan bərkiməni sürətləndirici əlavədir.

## İSTİFADƏ YERLƏRİ

- Yüksək ilkin möhkəmliyə malik püskürtmə beton
- Tunellərdə başlıq sabitləməsində
- Qaya və yamacın sabitlənməsində
- Yeraltı örüklərdə
- Qalıcı gunit və ya püskürtmə beton qabığı tətbiqlərində

## ÜSTÜNLÜKLƏRİ

Sürətləndirici əlavənin təsiri, sementin tərkibindən, növündən və ömründən, səthin temperaturundan və növündən, şotkrit temperaturundan, qalınlığından və püskürtmə avandanlığı və prosesindən asılıdr. Beton qarışımındakı Su/sement nisbəti bərkimə sürətlənməsinə təsir edən digər önəmli parametrdir.

- Müstəsna erkən güc inkişafı
- Aşağı geri dönmə/düşmə
- Tək qatda 30 sm-ə qədər təbəqə qalınlığı
- Püskürtmə betonunun qaya və alt səthə tutunmasını yaxşılaşdırır, baş üstü tətbiqləri asanlaşdırır
- Xlorid tərkibli deyil, dəmir və ya polad armaturlarda korroziyaya səbəb olmur

## TƏSDİQLƏR VƏ SERTİFİKATLAR

Conforms to the requirements of EN 934–5, Table 2.

## MATERIAL MƏLUMATI

| | | |
|---|---|---|
| **Kimyəvi əsası** | Xüsusi qeyri-üzvi materiallar qarışığı. | |
| **Qablaşdırma** | IBC tank :1000kg , Tökmə- yük tankeri | |
| **Görünüş və rəng** | Yekcins maye, sarımtıl şəffaf | |
| **Saxlama Müddəti** | Düzgün anbarlama şərtlərində saxlandıqda, istehsal tarixindən etibarən 3 ay.<br>Qeyd: Açılmış qablaşdırma ən qısa müddətdə istifadə olunmalıdır. | |
| **Saxlama Şərtləri** | ▪ Sika® Sigunit® L-25 öz qablaşdırmasında +8°C ilə +30°C arasında olan temperaturda saxlanmalıdır. Alüminium çənlərdə saxlamayın.<br>▪ Sika® Sigunit® L-25, havada atmosfer rütubəti və ya yağış və s. ilə reaksiya verir və bu səbəb ilə hər zaman möhürlənmiş qablarda saxlanmalı və həddindən artıq soyuqdan qorunmalıdır.<br>▪ Sika® Sigunit® L-25, yalnız təmiz qablara boşaldılmalıdır. Hava ilə qarışdırmaqdan və təmasından çəkinin, döşəmə girişləri və ya batırılmış borular vasitəsilə doldurmaq ən yaxşısıdır. | |
| **Sıxlığı** | 1,49 ± 0,15 $g/cm^3$ (+20°C-də) | ISO 758 |

| | | |
|---|---|---|
| **pH-Dəyəri** | 12,00 - 14,00 (10% -li məhlul) | ISO 4316 |
| **Həll olunan xlorid ionunun miqdarı** | Maks. 0,1 % , xloridsiz | EN 480-10 |
| **Donma temperaturu** | <+5°C<br>(Qeyd:Aşağı temperaturda çox yüksək özlülüyünə görə pompalanması çətinləşir.) | |

## TEXNİKİ MƏLUMATLAR

| | |
|---|---|
| **Betonlama təlimatı** | Sika® Sigunit® L-25, püskürdücü ucluqda qarışıma əlavə olunur. Beton axınına dəqiq və daimi miqdarın verilməsi çox vacibdir. Təzə betonun xüsusiyyətləri (düzgün işləmə qabiliyyəti) püskürtmə avadanlığına, onun gücünə, temperaturuna və digər sahə şəraitinə və şərtlərinə uyğun olaraq tənzimlənməlidir. |
| **Beton Qarışım Dizaynı** | ▪ **Püskürdülmə:** Tövsiyyə olunan dənəcik ölçüsü 8 mm-dən, 16 mm-dək.<br>▪ **Beton konsistensiyası (Püskürdücü avadanlığa bağlı olaraq):** Tövsiyyə olunan beton axını 45 cm; Su/sement nisbəti 0.48 aşağı.<br>▪ **Axıcılıq beton əlavəsi tələbi**: Sika® ViscoCrete® / SikaTard® və s.).<br>▪ **Təzə betonun temperaturu:** > +15°C.<br>▪ Sika® Sigunit® L-25, tərkibi qələvi olmayan məhsul qrupları ilə uyğun gəlmir. |
| **Səth** | Səth, təmiz, boş daşlardan arındırılmış və hidrostatik təzyiq altında olmamalıdır. |

## TƏTBİQ MƏLUMATI

| | |
|---|---|
| **Tövsiyyə olunan doza** | Dəqiq istifadə miqdarı ilkin sınaqlarla müəyyən edilməlidir. Tək qatda 20 sm-ə qədər təbəqə qalınlığı üçün əlavənin istifadə miqdarı sement bağlayıcısının 3% -dən 7% -ə qədərdir. İsitifadə miqdarı təlimatı üçün yerli Sika Beton Texniki Departamentinə müraciət edin. |

## MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

## ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

İstifadəçi, hər hansı məhsuldan istifadə etməzdən əvvəl ən son müvafiq Təhlükəsizlik Məlumat Vərəqi (SDS) ilə tanış olmalıdır. Təhlükəsizlik Məlumat Vərəqi (SDS), fiziki, ekoloji, toksikoloji və digər təhlükəsizliklə bağlı məlumatları təqdim edir, kimyəvi məhsulların təhlükəsiz istifadəsi, saxlanması və utilizasiyası ilə bağlı məlumat və məsləhətlər verir.

## HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslananan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.

**Sika Azərbaycan MMC**
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12